# GÖYƏRÇİN

ISSN-.0207-4710
10
2005-cil

ÖZÜN DÜZƏLT

**Aya nə qədər məsafə var?**
I sinif şagirdi Yerdən Aya olan məsafə qədər yol getmək istəsə , gündə 120 km getməli, yuxusuz qalmalı, istirahət günü dayanmamalı, tətilə çıxmamalıdır. Belə halda səfərin sonunda balaca səyahətçinin yaşıdları XI sinif şagirdləri olacaqlar. 384 min km çox uzun məsafədir!




OYUNLAR



ŞERLƏR



NAĞIL VAXTI



## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri Cənab İlham Əliyevə



### Hörmətli cənab Prezident!

Siz ümummilli liderimiz Heydər Əliyevin yolunu ləyaqətlə davam etdirirsiniz. Azərbaycan elminə, mədəniyyətinə, incəsənətinə verdiyiniz qiymət bütün ziyalıların ürəyindəndir. Mətbuatımızın 130 illiyi ilə əlaqədar Azərbaycan jurnalistikasının inkişafında xidmətlərinə görə bir qrup qələm sahibinə fəxri adlar, orden və medallar vermisiniz. Mən də, " Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşəm. Bu fəxri adı təkcə mənə yox, baş redaktoru olduğum «Göyərçin» jurnalının yaradıcı kollektivinə verilən ad kimi qiymətləndirirəm. Ona görə Sizə öz adımdan, eləcə də jurnalımızın yaradıcı kollektivi adından dərin təşəkkürümü bildirirəm. Ümid edirəm ki, həmişə uşaq mətbuatının öncülü olan «Göyərçin» Sizin qayğı və diqqətiniz nəticəsində öz üçüşlərını davam etdirəcək, Azərbaycanın adına layiq oğullar və qızların tərbiyəsində yenə də əlindən gələni əsirgəməyəcəkdir.

Dərin hörmətlə, **Rafiq Yusifoğlu**,
«Göyərçin» jurnalının baş redaktoru.









## HEYDƏR BABA

Heydər baba, xalqımın
Ağsaqqalı, rəhbəri.
Zəkasından nur alır
Yurdumuzun səhəri.

Əməliylə, işiylə
Yadları çaşbaş salar,
Elə bil düşmənlərin
Başına bir daş salar.

Xalqına xor baxanın
Sinəsinə dağ çəkər.
Düşmən onun önündə
Təslim olar, diz çökər.

Heydər baba, xalqımın
Ümid yeri, pənahı.
Gözlərindən boylanır
Xalqımızın sabahı.

İnanır həqiqətə,
Haqq məğlub ola bilməz.
Belə rəhbəri olan
Xalq məğlub ola bilməz.





Rəssam
Leyla

# NAĞIL VAXTI

İsland nağılı

## GİLİTRUT

Qədim zamanlarda bir zəhmətkeş kəndli var idi. Onun öz evi, geniş otlaq sahəsi, çoxlu qoyunları var idi.

Kəndli evləndi. Ancaq onun bəxtinə çox tənbəl bir qadın çıxdı. O, öz ərinin yeməyini hazırlamağa belə can çəkirdi.

Bir dəfə kəndli evə bir kisə yun gətirdi və arvadına tapşırdı ki, yunu əyirib ondan corab, isti köynək toxusun.

Günlər bir-birini əvəz edir, qadın isə heç yuna yaxın da düşmürdü. Bir dəfə onların evinə yekəpər bir qarı gəldi. Kəndlinin arvadı ona dedi ki, bu yunu əyirib corab, köynək toxusan, nə istəsən sənə verərəm.

Qarı dedi ki, razıyam. Ancaq səndən heç nə istəmirəm. Dediyin işi qurtarandan sonra adımı üç dəfə çəksən, kifayətdir.

Qarı söz verdi ki, yaza qədər yunu əyirib ondan corab, köynək toxuyacaq. Sonra o, kisəni belinə alıb gözdən itdi.

Qışın axırlarında kəndli arvadından soruşdu ki, yundan bir şey toxuyub, yoxsa yox? Qadın dedi ki, narahat olma, hər şey vaxtında hazır olacaq. Aradan xeyli keçdi. Kəndli gördü ki, arvadı çox narahatdır. Ondan bunun səbəbini soruşdu. Qadın çar-naçar başına gələnləri ərinə danışdı.

Kəndli çox narahat oldu. Dedi ki, o, adi qarı deyilmiş, sən yaxşılıqla onun əlindən qurtara bilməyəcəksən.



Kəndli gizlicə qarının yaşadığı dağa getdi. Gördü ki, o, mahnı oxuya-oxuya yunu əyirir:

Tənbələ dağ çəkəcəyəm,  
Pis olacaq işin sonu,  
Mənim adım Gilitrutdu,  
Heç kəs bilmir ancaq bunu.

Kəndli tez eybəcər qarının adını bir kağıza yazıb evə qayıtdı. Dağda gördüklərini danışdı və kağızı arvadına verdi.

Vaxtın tamamında qarı toxuduqlarını da götürüb kəndlinin evinə gəldi. Kəndlinin arvadından soruşdu ki, de görüm mənim adım nədir?

Qadın bir neçə dəfə çaşdı. Sonra dili topuq çala-çala bu sözü tələffüz eləyə bildi:

\- Gilitrut!

Qoca qarı vahiməyə düşdü. Toxuduqlarını yerə atıb qaçdı. O vaxtdan həmin qarını bir də görən olmadı. Kəndlinin arvadı isə tənbəlliyin daşını atıb, işgüzar bir xanım oldu.

*Tərcümə edib işləyəni*  
*R. Əliyev*

Rəssam  
Aytən